Bakı Fransız Liseyi
1-ci Xəzər küçəsi 5
Xətai rayonu, Ağ şəhər



Bakı Fransız Liseyi
AZ1025
Tel : +994- 12-404-1340
Mail : administration@lfb.az

# Daxili Təlimat

## 2023 / 2024-cü tədris ili

16 noyabr 2023-cü ildə Məktəb Şurasına təqdim olunmuşdur.

**2023-cü ilin sentyabr ayında Bakı Fransız Liseyinin yaranmasının 10 ili tamam oldu**

**BFL bağçadan buraxılış sinfinədək tam homoloqasiya əldə etmişdir**

**BFL-də I sinifdən başlayaraq 12-ci sinif də daxil olmaqla məktəbli forması tətbiq olunur.**

- Daxili təlimat məktəb icmasının bütün üzvlərinə şamil olunan habelə şagirdlərin malik olduqları hüquq və azadlıqların həyata keçirilməsi ilə bağlı xüsusi qaydaları müəyyən edir.
- **Təlimat məktəbin tərəfdaşı olan Fransa Dünyəvi Missiyası və Azərbaycan Elm və Təhsil Nazirliyi ilə razılaşdırılır.**
- **Məktəbə qeydiyyatdan keçən hər bir şagird daxili təlimatı qəbul etməklə ona riayət etmək öhdəliyini öz üzərinə götürür.**
- **Daxili təlimatda öz əksini tapan hər hansı bir qayda pozuntusu müvafiq intizam tədbirinin tətbiqinə gətirib çıxara bilər.**

**Təhsil xidmətini tənzimləyən prinsiplər**

Daxili təlimat təhsil xidmətini müəyyənləşdirən xüsusi prinsip və dəyərlərə əsaslanır

***Bu prinsiplər aşağıdakılardır:***

-Neytrallıq və dünyəvilik prinsipinə riayət etmək (15 mart 2004-cü il tarixli qərar).
-Şagirdllərlə böyüklər arasında və şagirdlərin öz aralarında qarşılıqlı hörmət
-Tolerantlıq və başqalarına hörmət etmək
-Çalışqanlıq,davamiyyət və punktuallıq
- İstənilən formada psixoloji, fiziki və ya mənavi zorakılıqdan qorunmaq və bunun nəticəsində heç kimin heç bir zorakılıqdan istifadə etməmə öhdəliyi
-Qızlar və oğlanlar arasında bərabərlik

## Bakı Fransız Liseyində təhsil pillələri

- **Bağça : TPS-PS-MS-GS (ən kiçik,kiçk,orta, böyük qruplar), homoloqasiya almışdır,xarici dil olaraq bütün şagirdlərə ingilis və Azərbaycan dilləri tədris olunur.**

- **İbtidai sinif : CP - CE1 – CE2 – CM1 - CM2 (I-II-III-IV-V siniflər) homoloqasiya almışdır,xarici dil olaraq bütün şagirdlərə ingilis və Azərbaycan dilləri tədris olunur.**

- **Kollec homoloqasiya almışdır.Birinci xarici dil ingilis dili, ikinci xarici dil rus dilidir (digər xarici dilləri də seçmək mümkündür).BFL DNB(9-cu sinif buraxılış imtahanı, attestat)üzrə imtahan mərkəzidir**

- **Lisey : 10-11-12-ci siniflər homoloqasiya almışdır,xarici dil olaraq ingilis və rus dilləri tədris olunur.** Lisey şagirdləri göstərilən ixtisas fənləri üzrə buraxılış imtahanına hazırlaşırlar : Tarix coğrafiya siyasi elmlər (HGGSP), Xarici dil,ədəbiyyat və mədəniyyət (LLCER) ingilis dili, riyaziyyat
  Fizika-kimya,biologiya və sosial və iqtisadi elmlər

  o CNED vasitəsilə digər xarici dillər də seçilə bilər (bu dərslərin ödənişi valideynlər tərəfindən olunur.). Bu, ixtisas seçiminə də aiddir.

- Milliyətcə azərbaycanlı olan şagirdlərə Azərbaycan Təhsil Nazirliyinin proqramları əsasında Azərbaycan fənləri tədris olunur və 11-ci sinifdə şagirdlər attestat imtahanı verirlər.

## Bağça və ibtidai sinif

Ümumi qaydalar :

Tədris Fransa Milli Təhsil Nazirliyinin proqramları əsasında fransız dilində aparılır.

Liseydə fransız təhsil sisteminə uyğun olaraq bağça və ibtidai məktəb bağçanın TPS qrupundan CM2 sinfinə qədər olan şagirdləri qəbul edir. Bağça bölməsinə uşaq bezindən istifadə etməyən uşaqlar qeydiyyatdan keçə bilərlər.

Bağça və İbtidai təhsilin təşkili: Icbari dərslər:
Həftənin bazar ertəsi, çərşənbə axşamı, çərşənbə, cümə axşamı və cümə günləri saat 08:30-dan 11:30-dək və 12:50-dən 15:00-dək;

Saat 08:00 və 08:30-dan başlayaraq saat 15:00-da dərslər qurtaranadək şagirdlərə nəzarət olunur. Valideynlər övladlarının dərsə vaxtında gəlmələri və günortadan sonra vaxtında getmələri üçün müvafiq tədbirləri görməlidirlər;

Dərslərə mane olmamaq və sinif yoldaşlarından geri qalmamaq üçün 08:30-dan sonra gələn şagirdlər məktəbə buraxılmır (bağça da daxil olmaqla). Saat 08:30- dan sonra şagirdlərin məktəbə daxil olmasına məhdudiyyət qoyulur.

Bağçanın dərsdənkənar fəaliyyəti saat 15:15-dən 19:00-dək davam edir. Saat 16:30-də axşamqabağı yemək verilir. Valideynlər övladlarını səhər bağçaya gətirdikləri zaman axşam hansı saatda götürəcəkləri barədə müəllim, yaxud assistenti məlumatlandırmalıdırlar. Şagirdlər valideynlərə axşam dərsdənkənar fəaliyyətə və şam yeməyinə mane olmamaq üçün hər 30 dəqiqədən bir təhvil verilir. Saat 18:00-dan başalayaraq, valideynlər övladlarını birbaşa sinif otağından təhvil ala bilərlər.

**Dərslərin təşkili:**
Bağça və ibtidai sinifin bütün şagirdləri birbaşa təhsil alırlar.
Dərslər Fransa Milli Təhsil Nazirliyinin aparıcı müəllimləri və azərbaycanlı müəllimlər tərəfindən tədris olunur. Bağçada AEFE-nin dil layihəsi çərçivəsində ingilis dili tədris olunur.
Bütün ibtidai sinif şagirdlərinə həftədə bir saat yarım/üç saat ingilis dili tədris olunur. Azərbaycanlı şagirdlərə həftədə iki və ya üç dəfə 45 dəqiqə olmaqla Azərbaycan dili tədris olunur.

Bu ildən etibarən Azərbaycan dili üçüncü xarici dil kimi tədris olunur.

- Sinifdən sinfə keçmə :

*Bağça və ibtidai məktəb Fransa Respublikasının təhsil haqqında 1975-ci il qanununun xaricdə tətbiqi ilə bağlı 09.09.1993-cü il tarixli, 93 1084 saylı qərarına əsasən idarə olunur. Sinifdən sinfə keçirilmə qaydaları Müəllimlər şurası və məktəbin direktoru tərəfindən müzakirə edilir.*

## Kollec və Lisey

### Ümümi qaydalar

Kollec və lisey VI-XII sinifləri əhatə edir.
Tədris ilinin əvvəlində hər hansı bir sinifdə şagird olmadığı və müəllimlərin dərs cədvəlinin uyğun gəlmədiyi təqdirdə tədris ili ərzində həmin sinfin fəaliyyət göstərməsi mümkün olmayacaq.
Yuxarı sinfin dərsləri hər gün (I-V günlər) saat:

- 08:30-dan 12:25-dək və 13:20-dən 16:45-dək davam edir,
- Saat 15:00-dan 15:45-dək Azərbaycan Təhsil Nazirliyinin proqramları çərçivəsində Azərbaycanlı şagirdlərə Azərbaycan dilində fənlər tədris olunur.

Yoxlama yazı işləri saat 15 :00-dan 16 :45-dək davam edir. Bu sınaq imtahanında şagirdlərin iştirakı vacibdir. Hər rübün əvvəlində sınaq imtahanının tarixi bildirilir.

**- Böyük tənəffüs və dərslərarası fasilə**

Dərslərarası fasilə zamanı şagirdlər sinifdə qalır və ya dərs cədvəli üzrə aidiyyatı olan sinifə gedirlər.
Böyük tənəffüs zamanı şagirdlər məktəbin həyətinə çıxırlar.
Onlara nə sinifdə nə də pilləkənlərdə qalmağa icazə verilmir.
Onlar təhlükəli oyunlar oynamaqdan, etik davranış və gigiyena qaydalarına zidd hərəkətlər etməkdən qaçınmalıdırlar.
Hər dərsin əvvəlində şagirdlər öz siniflərində olmalıdırlar.

**- Məktəbə və sinif otaqlarına giriş qaydaları**

Məktəbə giriş üçün yalnız məktəb işçilərinə və şagirdlərə icazə verilir. Şagirdlər yalnız təhsil işçisinin müşaiyəti ilə sinifə daxil ola bilərlər.
Digər şəxslər məktəb administrasiyası ilə telefon və ya email vasitəsilə görüş təyin edərək gələ bilərlər.

**- Sinif otaqlarından və məktəb ləvazimatlarından istifadə**

Hər kəs ətraf mühitə, sinif otaqlarına və istifadəsinə verilmiş əşyalara diqqətlə yanaşmalıdır.Hər hansı qəsdən zərər vurma halları cəzalandırma və ya sanksiya (ağır cəza) tətbiqindən əlavə, qanuni nümayəndələrin maddi məsuliyyətə cəlb olunması ilə nəticələnə bilər.
Hər kəs məktəbin təmiz saxlanılmasında və təmizlik işçilərinin işlərini asanlaşdırmaqda dəstək olmalı, onların işinə hörmətlə yanaşmalıdır.Hər dərsin sonunda şagirdlərdən sinif otaqlarını təmiz və səliqəli qoyub çıxmaları xahiş olunur (stollar, stullar, şkaflar,yerə düşmüş kağızları yığmaq və onları zibil qabına atmaq və s)

**- Şagirdlərə nəzarət qaydaları**

Şagirdə məktəbdə olduğu müddət ərzində nəzarət olunur. Bu müddət onun dərs cədvəli və dərsinin bitdiyi saata əsasən müəyyən olunur.

**- Məktəb daxilində şagirdlərin hərəkəti**

Bu proses sakit şəkildə həyata keçirilməlidir. Dərs zamanı şagirdlər müəllimin icazəsi olmadan sinif otağını tərk edə bilməzlər. İcazə istədiyi zaman ona icazə kağızı verillir.

### Dərslərin təşkili

Yuxarı sinfin proqram və cədvəli Fransa Milli Təhsil Nazirliyinin təlimatlarına əsasən müəyyən olunur.

***Lisey bağçadan 12-ci sinfədək tam homoloqasiya əldə etmişdir.***
*Keçirilən fənlərə əsasən dərslər fransız, fransızdilli, ingilisdilli və azərbaycanlı müəllimlər tərəfindən birbaşa həyata keçirilir.*
İngilis dili bütün siniflərdə birinci xarici dil olaraq tədris olunur. VII sinifdən başlayaraq ikinci xarici dil kimi rus dili tədris olunur.
Şagird CNED-in «kart» sisteminə uyğun olaraq digər xarici dil də seçə bilər. Məktəb həmin dərslərin təkrarını təmin etmir və bu dərslərin ödənişi valideynlər tərəfindən olunur.

**- Fiziki tərbiyə və idman dərsinin tədrisi**
Fiziki tərbiyə və idman dərsinin tədrisi məcburidir və bütün şagirdlərə şamil olunur.
Şagird idman dərsi ilə məşğul ola bilmədikdə tibbi arayış təqdim etməlidir. Bu arayışda şagirdin fəaliyyətinin qismən və ya tam təsviri və müddəti qeyd olunmalıdır. Əmək qabiliyyəti qismən itirildikdə, həmin şagirdə idman dərsinin tədrisi arayışda qeyd olunanlara əsasən uyğunlaşdırılacaq.
Şagird arayışı idman müəlliminə, məktəbin həkiminə və təhsil üzrə müşavirə təqdim etməlidir.
İdman dərsində iştirak edə bilməyən şagird, xüsusi hallar istisna olmaqla,digər dərslərdə iştirak etməlidir.
Əgər şagird əmək qabiliyyətinin itirilməsilə bağlı ardıcıl olaraq 3 ay müddətində gəlmirsə, tibbi arayış məktəbin həkiminə təqdim olunmalıdır.
Əgər şagird bir dərsdə iştirak edə bilməyəcəksə, qanuni nümayəndələri bunu şagirdin gündəliyində qeyd etməli və şagird bunu idman müəllimi və təhsil üzrə müşavirə təqdim etməlidir.
İdman forması və ayaqqabısı gətirmək mütləqdir.

**Sinifdən sinfə keçmə**
Şagirdlərin sinifdən sinfə keçirilməsi təhsil məcəlləsinə əsasən Sinif şurası tərəfindən həyata keçirilir.

## Bakı Fransız Liseyinin fəaliyyəti (BFL)

Bakı Fransız Liseyi qeyri-kommersiya xarakterli özəl təhsil müəssisəsidir.

Lisey, davamlı təhsilin tanınmasını təmin edən 1901-ci il Fransa qanununa əsasən fəaliyyət göstərən Fransa Dünyəvi Missiyası ilə əməkdaşlıq edir. Bu cəmiyyət məktəbin yüksək səviyyəlifransızdilli işçi heyəti, inzibati və pedaqoji xidmətlərlə təmin olunmasında köməklik göstərir.

Məktəbin pedaqoji fəaliyyəti məktəbin direktoru tərəfindən həyata keçirilir. O, İdarəetməKomitəsinə hesabat verir. İdarəetmə Komitəsi 4 nümayəndədən ibarətdir:

- Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin nümayəndəsi (SOCAR);
- Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndəsi;
- Heydər Əliyev Fondunun nümayəndəsi;
- Fransanın Azərbaycandakı səfirliyinin mədəniyyət üzrə müşaviri.

Məktəbin direktoru İdarəetmə komitəsi tərəfindən müəyyən olunmuş yüksək ixtisaslı nümayəndədir. O, Fransa Milli Təhsil Nazirliyinin inspektoru və Fransanın Azərbaycandakı Səfirliyinin Mədəniyyət üzrə müşaviri ilə əlaqə saxlayır.

Müəllimlər Fransa Milli Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş metod, proqram və dərscədvəlləri əsasında məktəb direktorunun pedaqoji rəhbərliyi altında fəaliyyət göstərirlər

## Şagirdlərin qəbulu

Bütün valideynlər övladlarını BFL-ə qeydiyyatdan keçirə bilərlər.

Valideynlər qeydiyyat formasını doldurmalı və məktəb tərəfindən müəyyən olunmuş vaxt ərzində lazımi sənədləri təqdim etməlidirlər.

Verilən qərardan asılı olaraq, məktəbə qeydiyyat üçün ilkin qeydiyyat haqqı və birinci rübün və ya illik təhsil haqqları ödənilməlidir. Ödənişi təsdiq edən sənəd (ödəniş qəbzi) məktəbə təqdim olunmalıdır və ödəniş müqavilədə nəzərdə tutulmuş vaxtdan gec həyata keçirilərsə, şagird məktəbə buraxılmaya bilər.

Şagirdin Liseydən çıxma tarixindən asılı olmayaraq, bütöv ay ödənilməlidir.

Fransız şagirdlərin valideynləri çıxarış haqqında arayış, sinifdən-sinfə keçmə haqqında rəy və keçmiş məktəbdən şəxsi işi təqdim etməlidirlər.

Digər valideynlər üçün:

Bağçaya uşaq fransız dili testi keçmədən də qəbul edilir.

CP-CE1 sinfində, fransızdilli olmayan şagirdlərin sayı məhduddur.

CE2-CM1-CM2 və yuxarı siniflərdə, qeydiyyatdan keçmədən öncə dil və digər testlər tətbiq olunur.

Liseyə inteqrasiya etmək üçün yaxşı fransız dili səviyyəsinin olması tövsiyə olunur.

Liseydə intensiv fransız dili dərsləri keçirilir, lakin bu qeyri-fransızdilli şagirdlərin uğurlu inteqrasiyasını təmin etmək üçün kifayət deyil.

İbtidai sinifdən başlayaraq fransızdilli şagirdlərə üstünlük verilir.

## Şagirdlərin sağlamlığı və gigiyena qaydaları

Fransız təhsil sistemində, məktəbin sağlamlıq xidmətlərinə profilaktik tədbirlər, müayinə, sağlamlıq təlimləri və məktəb mühitində gigiyena qaydalarının yoxlanılması daxildir.

Peyvənd haqqında arayış olmalıdır

Həkim otağı : Həkim müəyyən olunmuş saatlar üzrə fəaliyyət göstərir. Şagirdlər həkim otağına fasilə zamanı gedə, təcili hallarda isə təhsil işçilərindən birinin müşaiyəti ilə həkimə müraciət edə bilərlər, daha sonra bununla bağlı sinif müəllimi şagirdin gündəliyində qeyd aparır və imzalayır.
Ciddi problem olduqda, valideynləri tez bir zamanda məlumatlandırmaq üçün onlar tərəfindən təcilli hallar üçün icazə vərəqəsi doldurulmalıdır.
Valideyn övladının səhhəti ilə bağlı hər hansı bir problemi varsa bu barədə məktəbi və məktəbin həkimini məlumatlandırmalı və tibbi arayışları təqdim etməlidir. Şagirdin qəbul etdiyi dərmanlar və reseptlər məktəbin həkiminə təqdim olunmalıdır.
Təcilli hallarda və həkim məktəbdə olmadıqda, direktor və yaxud inzibati işçi şagirdin vəziyyətinə uyğun vasitələrdən istifadə etməklə tibbi yardım göstərə bilər. Bununla bağlı valideynlərə dərhal məlumat verilir.

Valideynlər övladlarının hər hansı bir sağlamlıq problemi barədə müəllimlərə məlumat verməlidirlər (tibbi məxfiliyi pozmadan).
Yoluxucu xəstəliklər olduqda isə direktor məktəb heyətinə aid profilaktik tədbirlər görülməsi ilə bağlı valideynləri məlumatlandırır.
Bədbəxt hadisə zamanı, valideynlərə xəbər verilməsi üçün bütün vasitələrdən istifadə olunur. Bu məqsədlə, valideynlər telefon, yaxud e-maildə hər hansı bir dəyişiklik olarsa, xəbər verməlidirlər.
Şagird xəstəxanaya aparıldığı təqdirdə, valideyn gələnə qədər şagird məktəbin məsul şəxslərindən birinin nəzarəti altında olur.
Bağçada uşaqlar hər gün BFL-in həkiminin nəzarətindən keçdikdən sonra qəbul olunur. Şagirdin vəziyyəti qənaətbəxş deyilsə, valideyni ilə birlikdə evə göndərilir.

## Valideynlər üçün məlumat

Şagirdin qanuni nümayəndələri onun davamiyyəti və məktəbə vaxtında gəlmək baxımından məsuliyyət daşıyır; onlar övladlarının məktəbin Daxili təlimatına riayət etməsinə nəzarət etməlidirlər.Şagirdlərin müvəffəqiyyət qazanması baxımından valideynlərin iclaslarda və valideyn-müəllim görüşlərində iştirakı vacib faktordur.Onlar təhsil icmasının bütün üzvlərinə və onların işlərinə hörmətlə yanaşmalıdırlar.

- Rüblük qiymət cədvəli

İbtidai sinifdə şagirdin nəticələrinin qeyd olunduğu qiymət kitabçası valideynlərə nəzərdən keçirmələri üçün ildə iki, yaxud üç dəfə təqdim olunur. Yuxarı sinifdə şagirdlərə rüblük qiymət cədvəli təqdim olunur

- **Müəllimlərlə görüş**

Müəllimlər valideynləri dərsdən sonra öncədən təyin olunmuş görüşə əsasən qəbul edirlər.
Direktor valideynləri öncədən təyin olunmuş görüşə əsasən qəbul edir.
Heç bir halda valideynlərin dərs zamanı sinfə daxil olma icazəsi yoxdur.

- **Valideyn iclası**

- Əgər lazım gələrsə, tədris ili ərzində və ya əvvəlində məlumat xarakterli valideyn iclası təşkil oluna bilər. Bu iclaslar ümumi maraq doğuran mövzuları əhatə edə bilər.
- Fərdi valideyn-məllim iclası bütün siniflər üçün rübün sonunda təşkil olunur. Direktor bu iclaslar barədə İdarəetmə Komitəsinə hesabat verir.

BFL-də ildə 3 dəfə Məktəb Şurasının iclası keçirilir.
Valideyn nümayəndələri bu iclasda iştirak edirlər.
Tədris ilinin əvvəlində, direktor Valideyn nümayəndələrinin seçkisini təşkil edir.
Bu seçkinin şərtləri valideynlərə yazılı şəkildə göndərilir.

Kollec və liseydə valideyn nümayəndələri sinif şurasının iclaslarında da iştirak edirlər.

## İşçi heyəti üçün məlumat

**- Hüquqlar**

Məktəbin bütün işçilərinin öz şəxsiyyətinə və işinə hörmət tələb etmək hüququ vardır.

**- Öhdəliklər**

Bütün işçilər digər şəxslərin inanclarına hörmət etməli, sözlərində diqqətli olmadırlar.Şagirdlərə və onların ailələrinə qarşı hörmətsizliyi, ayrı-seçkiliyi əks etdirən hər hansı bir hərəkət, jest və ya söz qəbuledilməzdir.

## Dərsliklər və dərs ləvazimatları

Dərsliklərin və dərs ləvazimatlarının alınması məktəb tərəfindən təşkil olunur.Valideynlər övladlarını siniflər üzrə onlara göndərilən siyahıda qeyd olunan dərs ləvazimatlar ilə təmin edirlər. Şagirdlər dərs ləvazimatlarını səliqəli saxlamalı və tədris ilinin sonunda səliqəli şəkildə məktəbə qaytarmalıdırlar.Məktəb tərəfindən dərslik və kitablardan istifadə qaydası valideynlərlə imzalanmış müqavilədə qeyd olunmuşdur.

Şagirdlər dərs ləvazimatlarını səliqəli saxlamalı və tədris ilinin sonunda səliqəli şəkildə məktəbə qaytarmalıdırlar.
İl ərzində qeydiyyatdan keçdiyi halda, şagirdin öz dərs ləvazimatları ilə birlikdə məktəbə gəlməsiüçün valideynlər lazımi tədbirləri görməlidirlər. Əgər məktəbdə həmin dərs ləvazimatı varsa, o məktəb tərəfindən təmin edilir.

## Kitabxana

Kitabxananın öz qaydaları var. Bu qaydalar haqqında hər tədris ilinin əvvəlində valideynlərə məlumat verilir. Bu qaydalar aşağıdakıları əhatə edir :

- Kitabxanaya giriş
- Kitabxana istifadəçilərinin hüquq və öhdəlikləri
- Kitabxanadan kitab götürməyin qaydaları

Sonuncu qayda şagirdlərə, valideynlərə xatırladılır.Bu qaydaya əsasən, kitabxanadan götürülmuş kitab yararsız hala salınmışsa və ya itibsə,bu, cərimələnmə ilə nəticələnə bilər.

## Məktəb yeməkxanası

Məktəbdə şagirdlər üçün yeməkxana xidməti də mövcuddur.

***<u>Əgər şagird günorta dərsarası çıxıb gedirsə, məktəbə mütləq xəbər verilməlidir.</u>***

Şagirdlər növbətçi heyətin nəzarəti altında yeməkxanaya gedirlər.
Günorta dərsarası fasilə zamanı, tənəffüsdə nəzarət növbətçi müəllim köməkçiləri tərəfindən həyata keçirilir.

Heç bir halda şagirdlərə sinifdə yeməyə və içməyə icazə verilmir.
Günorta dərsarası fasilə zamanı, yuxarı sinif şagirdləri sinfə yalnız dərslə məşğul olmaq üçünvə sinif rəhbərinin icazəsi ilə daxil ola bilərlər.

## Sığorta

Bakı Fransız Liseyində mülki məsuliyyətin sığortası və fərdi qəza sığortası icbaridir (diqqət:bəzi sığortalar təqvim ilinə digərləri isə tədris ilinə görə müəyyən olunur).
Sığorta müqaviləsinə təkcə şagird tərəfindən vurulmuş zərər (bu, mülki məsuliyyətli sığorta müqaviləsinə aiddir) deyil, şagirdin iradəsindən asılı olmayaraq məruz qaldığı zərərin ödənilməsi də daxildir («Fərdi qəza» sığortası). Bununla bağlı məktəb administrasiyasından məlumat əldə edə bilərsiniz.
Valideynlər sığorta şəhadətnaməsinin bir nüsxəsini müəllimə və ya məktəb administrasiyasınatəqdim etməlidirlər (Fərdi qəza və Mülki məsuliyyətin sığortası).
Şagird bu sənədləri təqdim etdikdən sonra Liseyə qeydiyyatdan keçə bilər. Sığortası olmayan şagirdLiseydə təhsil ala bilməz.

## Təhlükəsizlik

Təhlükəsizlik baxımından, şagirdlərə məktəbdə olduqları müddət ərzində özləri ilə qayçı, bıçaq,pərgar kimi əşyalar gəzdirmək qadağandır. Balaca uşaqlara (bağça və CP) döş nişanları və muncuq gəzdirmək qadağandır.

«Kəsici alətlər»in istifadəsi qəti qadağandır.

Hər hansı bir hadisə və ya qəza halları baş verərsə, nəzarətçi müəllimlərə dərhal xəbər verilməlidir.
Təhlükəsizlik səbəbindən, valideynlərdən xahiş olunur ki, hər hansı bir gecikmə halları olduqda(yuxarı sinif şagirdlərinə də aid edilir) və şagird dərsə gəlmədiyi halda dərhal Liseyə xəbər verilsin. Belə hallar şagirdin gəlmədiyi gün, saat 10-dan gec olmayaraq telefon, yaxud e-mail vasitəsi ilə Liseyə bildirilməlidir.
Təhlükəsizlik səbəbindən, Liseyin heç bir şagirdinə günorta fasiləsi (lazım gələrsə) istisna olmaqla, dərs zamanı Liseydən çölə çıxma icazəsi verilmir.
Tənəffüs və nahar fasiləsi zamanı şagirdlər mütləq sinifdən çıxmalıdırlar.Yalnız yuxarı sinif şagirdləri dərslə məşğul olmaq məqsədilə sinfin baş müəlliminin icazəsi ilə sinfə daxil ola bilərlər.

Xüsusi tibbi qulluq və dərman qəbulu : bu barədə yuxarıda qeyd olunmuş « gigiyena və sağlamlıq » bölməsindən məlumat əldə edə bilərsiniz. Məktəb maksimal təhlükəsizliyi təmin etmək üçün valideynlərlə olan fəal əməkdaşlığa arxalanır.

## Davamiyyət

Şagirdin müntəzəm olaraq dərslərdə iştirakı icbaridir. Dərsə davamiyyət şagirdin yoxlama yazı işlərinə də öz təsirini göstərə bilər.
Bütün dərslər məcburidir.
Şagird gecikərsə və ya dərsə gəlməzsə, valideyn mümkün qədər tez bir zamanda (saat 08:30-a dək) +994 12 4041340 nömrəsinə zəng edərək, yaxud administration@lfb.az e-mail adresi vasitəsi ilə məktəbə xəbər verməlidirlər. Saat 09:00-dan sonra, şagird ən azı yarım gün üzrsüz olaraq dərs buraxmış sayılır.
Evdən gec çıxmağa və tıxaca görə olan gecikmələr üzrlü hesab olunmur. Səbəbindən asılı olmayaraq hər növ davamiyyətsizlik, yazılı şəkildə, ibtidai sinifdə qeyd dəftəri, yuxarı sinifdə Məktəbli kitabçası (Gündəlik) vasitəsilə və yaxud şagird məktəbə gələrkən imzalı məktub göndərərək əsaslandırılmalıdır.
Əgər hər hansı bir şagird, dərs zamanı üzrlü səbəbdən Liseydən getməli olsa, onu yazılı şəkildə, yalnız valideynlərinə və ya onların qanuni nümayəndələrinə etibar etmək olar. Bu hal dərs bitdikdən sonra şagirdlərin Liseydən götürülməsinə də aiddir.

Davamiyyətsizlik 2 gündən artıq olarsa, tibbi arayış tələb olunacaq.

Şəxsi səbəblərə görə olan davamiyyətsizlik üzrsüz hesab olunur. Təhsilalan üzürsüz səbəbə görə 10 yarım dərs günü yəni 5 gün dərs buraxdıqda,davamiyyətsizliyə görə şagirdin gələn tədris ilində təhsilini liseydə davam etdirəcəyinə zəmanət verilmir və yaxud təkrar sinifdə qalacağı barədə məktəb tərəfindən valideynə məktub göndərilir. Səyahətlər və şəxsi səbəblərdən dərs buraxmaq üzürsüz hesab olunacaq.

Səyahətlər və şəxsi səbəblərdən dərs buraxmaq üzürsüz hesab olunacaq.

Punktuallıq zəruridir (liseyə giriş və çıxış saatları). Dərsə gecikən Təhsilalana inzibati şöbə tərəfindən gecikdiyi barədə vərəqə verilir və o müəllimə təqdim olunur. Gecikən yuxarı sinif şagirdləri növbəti dərs başlayana qədər növbətçi otağında gözləyirlər.

Saat 08:25-dən sonra liseyə girişə mühafizə xidmətinin nümayəndələri nəzarət edir.

Bir rüb ərzində üç gecikmə halı olduqda (liseyə giriş və çıxış zamanı),valideynlər övladları ilə birlikdə Təhsil üzrə müşavir və ya direktorla görüşmək üçün Liseyə gəlməlidirlər.

Bu gecikmələrə görə valideynlərə yazılı şəkildə xəbərdarlıq göndəriləcək.

## Məktəb təqvimi

Təqvim məktəbin direktoru tərəfindən İdarəetmə Komitəsinə təqdim edilir. Bura Azərbaycanın milli bayram günləri və Fransanın məktəb təqvimində olan tətillər aiddir. O, Fransa Milli Təhsil Nazirliyinin Şərqi Avropa üzrə inspektorunun müzakirəsinə təqdim olunur və Fransanın Azərbaycandakı səfirliyinin Mədəniyyət üzrə müşaviri tərəfindən təsdiq olunur.

Qeyd etmək lazımdır ki, müəllimlər nəzərdə tutulan tətillərdən başqa şəxsi səbəblərə görə davamsızlıq göstərən şagirdlərin əvvəlki və sonrakı dərslərinə görə məsuliyyət daşımır.

Gələcək tədris ilinin qeyri-iş günləri təqvimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin cari ilin dekabr ayında veriləcək qərarına əsasən təsdiq olunacaq, bəzi qeyri-iş günləri əlavə oluna bilər.Ramazan bayramına aid qeyri-iş günləri təsdiqləndikdən sonar əlavə olunacaq.

## DAVRANIŞ QAYDALARI

**Məktəb həyatı**

Məktəb həyatı şagirdlərin inkişafına və başqalarının azadlığına hörmət etməklə onların sosial həyata inteqrasiya etmələrinə xidmət edir.

**Hüquq və öhdəliklərin həyata keçirilməsi**

**A) Şagirdlər**

**- Bu hüquqlardan istifadə qaydaları**

Liseyin şagirdləri öz hüquq və azadlıqlarından istifadə edirlər.

Bu hüquqlardan istifadə başqalarına qarşı hörmət, tolerantlıq, plüralizm və neytrallıq kimi bəzi öhdəliklərə və qaydalara riayət etməklə həyata keçirilir.

- Şagird nümayəndələri Məktəb Şurasının iclaslarında, kollec və lisey şuralarının iclaslarında sinfi təmsil edirlər

- İclasda iştirak hüququ – İnformasiya azadlığı – Başqalarının şəxsiyyətinə və inanclarına hörmət etmək - Hər hansı zorakılıq olmadan, fiziki və mənəvi təhlükəsizliyin təminatı

Şagirdlər liseydə öz fikirlərini ifadə etməkdə azaddırlar.

**- Öhdəliklər**

**1 – Davamiyyət və dərslər:**

Davamiyyət dərslərdə uğur qazanmaq üçün vacib şərtdir.Şagird bütün dərslərdə iştirak etməli və verilən bütün tapşırıları yerinə yetirməlidir.

**2 – Punktuallıq :**

Şagirdlər dərs cədvəlində qeyd olunmuş saatlar üzrə dərsdə olmalıdırlar.

**3 – Dərs ləvazimatları :**

Şagird hər gün dərs üçün lazımi ləvazimatları və gündəliyini gətirməli və məsul şəxslər ondan gündəlik tələb etdikdə təqdim etməlidir.

**4 – Məktəbin işçi heyətinə hörmətlə yanaşmaq, məktəb qaydalarına riayət etmək :**

Şagirdlər məktəb qaydalarına riayət etməli, məktəbin işçi heyətinə və digər şagirdlərə hörmətlə yanaşmalıdırlar.

Sivil qaydalara hamı riayət etməlidir.

Şagirdlərə məktəb tərəfindən verilmiş kitablar tədris ilinin sonunda geri qaytarılmalıdır.Kitab səliqəsiz hala salınarsa və ya itdikdə məsuliyyət valideynin üzərinə düşür.Bu, həmçinin şagird gündəliyi üçün də tələb olunur.

**5 – Dünyəvilik prinsiplərinə riayət etmək:**

Təhsil məcəlləsinin L 141-5-1 maddəsinə əsasən,dini mənsubiyyəti gözə çarpacaq şəkildə nümayiş etdirən geyim və ya simvollardan istifadə qadağandır.

**6 – Heç bir zorakılıq hallarına yol verməmək :**

İstər məktəb daxilində, istərsə də onun ətrafında şifahi və fiziki zorakılıq, əmlaka zərər vurma və oğurluq intizam tənbehinin tətbiqinə gətirib çıxaran davranışlardır.

Məktəb bütün insanların ləyaqətlərinin bərabər şəkildə qorunduğu yerdir. İrqçilik, antisemitizm və bullinqin bütün formaları qadağandır.

Hüquq və öhdəliklərin tətbiqi hər bir şagirdin məsuliyyətli vətəndaş kimi yetişdirməsinə zəmin yaradır.

**- mobil telefondan istifadə**

Məktəb daxilində telefondan və ya digər elektron ünsiyyət vasitələrindən (məs:planşet və ya elektron saat) istifadə etmək qadağandır. Mobil telefonlar söndürülməli və məktəb administrasiyasına təhvil verilməlidir.

Qayda pozulduğu halda, telefon müsadirə oluna bilər və günün sonunda şagirdə və ya onun qanuni nümayəndəsinə qaytarılacaq.

Ciddi problem olduqda, şagirdlər Liseyin administrasiyasına müraciət edə bilərlər.

**- şəxsi əşyaların istifadəsi**

Məktəbdə oyuncaqlar, elektron oyunlar, qulaqlıqlar, kəsici əşyalar, zinət və ya qiymətli əşyalardan istifadə qadağandır.

**- Geyim qaydaları**

BFL-də 2023-2024-cü tədris ilinin əvvəlindən etibarən gündəlik məktəbli forması və idman forması tətbiq olunur.

Bu haqda məlumat BFL-in saytında yerləşdirilmişdir.

Bütün şagirdlər düzgün davranış nümayiş etdirməli və düzgün şəkildə danışmalıdırlar.Məktəbdə ünsiyyət dili fransız dilidir.

Məktəb daxilində bütün növ baş geyimləri, papaq, günəş gözlüyündən istifadə etmək olmaz.

Məktəbə boyalı saçlarla gəlmək qadağandır.

Bağçada, təhlükəsizlik baxımından, uşaqların dırnaqlarına lak çəkmək və uzun sırğalar,zinət əşyaları, boyunbağı taxmaq olmaz.

- **İtən əşyalar :** Məktəb itən və ya oğurlanan əşyalara görə məsuliyyət daşımır.Hər kəs öz şəxsi əşyalarına nəzarət etməlidir.Tapılan əşyalar məktəbin administrasiyasına təhvil veriləcək.Qiymətli əşyalar gətirməmək tövsiyə olunur.
- **Məktəbə giriş və çıxış :** Təhlükəsizlik baxımından hər bir şagird məktəbin girişində gündəliyini təqdim etməlidir. Bu, eyni zamanda şagiridin təhsil aldığı sinfi, dərs cədvəlini və onun çıxış saatını bilmək imkanı verir.

**İntizam qaydaları : cəza və sanksiyalar (ağır cəza)**

Şagird məktəbin gözləntilərini dərk edərək "birlikdə təhsil almaq" qaydalarını öyrənir.Bu qaydalar onlara izah edilmişdir. Şagird öz davranışlarının mahiyyəytini və nəticələrini,hüquq və öhdəliklərini, onları tətbiq etməyi, onların məktəb mühitində, daha geniş desək, sosial münasibətlərdə əhəmiyyətini tədricən öyrənir.

Şagirdin ləyaqət və şəxsiyyətinə hörmət çərçivəsində, intizam qaydalarına riayət edilmədikdə, bu, cəza və sanksiyaların tətbiqi ilə nəticələnə bilər.
Cəzalar və sanksiyalar tərbiyəvi xarakter daşıyır, onlar fərdi olur və şagirdin təqsirinə əsasən müəyyən olunur. Cəza və sanksiyalar vəziyyətin ciddiliyindən asılı olaraq tətbiq olunur.

**Cəzalandırma (yüngül cəza)**

Cəza intizam qaydaları cüzi şəkildə pozulduqda tətbiq olunur və intizam qaydaları pozulduqda məktəbin bütün işçiləri tərəfindən həyata keçirilə bilər.

**Cəza növləri :**

- Gündəlikdə qeydlər – Əlavə tapşırıqlar – Ciddi qayda pozuntusu zamanı dərsdən kənarlaşdırmaq – Məktəbdə saxlanılma – Ümumi maraq doğuran iş

Xatırlatma:şagirdin davranışı onun qiymətinə təsir etməməlidir. Davranışa görə şagirdə sıfır yazmaq olmaz.
Bu cəzalar heç bir şəkildə şagirdlərə fiziki və mənəvi cəhətdən xələl gətirməməlidir.

**Sanksiyalar (ağır cəza)**

İntizam tənbehi şagirdlərin öhdəliklərinin ciddi və ya dəfələrlə pozulması zamanı, o cümlədən məktəbin işçi heyətinə və məktəbə aid avadanlıqlara zərər yetirdikdə tətbiq olunur.
Sanksiya direktor və ya intizam kommisiyası tərəfindən həyata keçirilir.

**İntizam tənbehinin növləri:**

- Xəbərdarlıq – məzəmmət – məsuliyyət tədbiri
- Şagirdlər yüngül və ağır formada cəzalandırılaraq müvəqqəti (bu, 8 günü keçməməlidir və sonra şagird məktəbə yenidən qayıdır) və birdəfəlik kənarlaşdırılır (intizam komissiyası tərəfindən həyata keçirilir).

**İntizam tədbirləri aşağıdakı hallarda tətbiq edilir :** (İntizam komissiyasının çağırılıb çağrılmamasından asılı olmayaraq)

- Şagird məktəbin əməkdaşına qarşı şifahi zorakılıq törətdikdə;
- Şagird işçi heyətinə və ya digər şagirdlərə qarşı ciddi zərər yetirən hərəkətlər etdikdə ;
- Müəssisənin işçi heyəti fiziki zorakılığa məruz qaldıqda. Belə olduğu halda,direktor bu məsələni intizam komissiyasında müzkirəyə çıxaracaq.

İntizam tənbehi tətbiq olunursa, bu, ümumi hüquq prinsipləri çərçivəsində (qanunilik prinsipi, « non bis in idem-heç kəs eyni əmələ görə təkrar cəzalandırıla bilməz» qaydası əsasında, ziddiyyət, proporsionallıq prinsipi,fərdiləşdirmə prinsipi) həyata keçirilməlidir.

İntizam şurasının tərkibi cari tədris ilində Məktəb Şurasının ilk iclası zamanı müəyyən olunmuşdur.

Direktor zəruri hallarda şagirdin məktəbə daxil olmasını qadağan edən bilər :

- Şagirdin İntizam şurasında iştirakına qədər olan müddət
- Intizam tədbirləri çərçivəsində,şagirdə özünü müdafiə etmək üçün verilən maxsimum 3 gün

Bu müddət cəzalandırılma kimi qiymətləndirilməməlidir.

**Digər tədbirlər**

**- Qabaqlayıcı, bərpa və dəstək tədbirləri**

- Təhlükəli və qadağan olan əşyaların müsadirəsi

Hər hansı bir əşya və ya avadanlıq zədələndikdə, zərərin aradan qaldırılması üçün görüləcək tədbir onun növünə uyğun olaraq tərbiyəyönümlü olmalıdır.
Bununla bağlı, aşağıdaki tədbirlər həyata keçirilə bilər :

- Məktəbin təhsil işçisinin nəzarəti altında törədilmiş təqsirlə əlaqədar ümumi marağa uyğun tapşırıq
- Hər hansı avadanlığa və ya əşyaya dəymiş maddi ziyanın valideynlər tərəfindən ödənilməsi.

**- Təhsil komissiyası** :

Komissiyanın məqsədi davranış qaydalarını pozan şagirdin vəziyyətini təhlil etməkdir.
O, şagirdə fərdi şəkildə, tərbiyəvi yönümdə yanaşmalıdır.
Təhsil Komissiyası heç bir halda İntizam komissiyasını əvəz etməməlidir.

**- Həvəsləndirici tədbirlər**

Şagirdi vətəndaşlıq,həmrəylik, akademik uğur əldə etmək, incəsənət, idman sahəsində həvəsləndirmək üçün bu cür tədbirlər həyata keçirilə bilər.
Sinif şurasının iclasları zamanı verilən tapşırığı etmək və səy göstərmək hissini inkişaf etdirmək üçün tədbirlər görülə bilər. Bunun üçün « Həvəsləndirici sözlər »,« Təriflər » və ya « Təbriklər» kimi sözlərdən istifadə oluna bilər.

**Məktəb Şurasının 16 noyabr 2023-cü il tarixli iclası zamanı təsdiq olunmuşdur.**

**Direktor**

**cənab R. BARBE**

**Baş menecer**
**İdarəetmə Komitəsinin adından**

**cənab İ. ASLANOV**